*UOT 159.9*

***Səbinə Hikmət qızı Əlizadə***
*psixologiya üzrə fəlsəfə doktoru*
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*

# SOSİAL İNTELLEKT VƏ UŞAQLARIN BAĞÇAYA ADAPTASİYASININ SOSİAL-PSİXOLOJİ MƏSƏLƏLƏRİ

***Сабина Хикмет гызы Ализаде***
*доктор философии по психологии*
*старший преподаватель Азербайджанского Государственного Педагогического Университета*

# СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ВОПРОСЫ СОЦИАЛЬНОГО ИНТЕЛЛЕКТА И АДАПТАЦИИ ДЕТЕЙ В ДЕТСКОМ САДУ

***Sabina Hikmat Alizada***
*doctor of philosophy in psychology*
*head teacher of Azerbaijan State Pedagogical University*

# SOCIO-PSYCHOLOGICAL ISSUES OF SOCIAL INTELLIGENCE AND ADAPTATION OF CHILDREN IN KINDERGARTEN

**Xülasə.** Müasir dövrdə sosial intellektin inkişaf etdirilməsi aktual sosial-psixoloji problemlərdən biridir. Məktəbəqədər yaş dövrü sosial intellektin formalaşması üçün əsas rolu oynayır. Lakin bir çox hallarda ailədə sosial qabiliyyətlərin inkişafına önəm verilmir. Bu uşaqların bağçaya sosial adaptasiyasını çətinləşdirir. Nəticədə uşaqların sosial intellektinin inkişaf imkanları məhdudlaşır. Bu məsələlərə həsr olunan məqalədə uşağın uşaq bağçasına sosial adaptasiyasının səbəbləri, uşağın bağçaya hazırlığının zəruriliyi və yolları sosial psixoloji baxımdan açıqlanır.

***Açar sözlər:*** *sosial intellekt, sosial adaptasiya, ailə mühiti, bağça mühiti, sosial adaptasiya, bağçaya hazırlıq.*

**Резюме.** Развитие социального интеллекта является одной из актуальных социально-психологических проблем современности. Дошкольный возраст играет ключевую роль в формировании социального интеллекта. Однако во многих случаях развитию социальных навыков в семье не придается большого значения. Это усложняет социальную адаптацию детей к детскому саду. В результате возможности развития социального интеллекта детей ограничены. В статье, посвященной этим вопросам, с социально-психологической точки зрения объясняются причины социальной адаптации ребенка к детскому саду, необходимость и пути подготовки ребенка к детскому саду.

***Ключевые слова****: социальный интеллект, социальная адаптация, семейная среда, среда детского сада, социальная адаптация, подготовка к детскому саду.*

**Summary.** Development of social intelligence is one of the current socio-psychological problems in modern times. Preschool age plays a key role in the formation of social intelligence. However, in many cases, the development of social skills is not given importance in the family. This complicates the social adaptation of children to kindergarten. As a result, children's social intelligence development opportunities are limited. In the article dedicated to these issues, the reasons for the child's social adaptation to the kindergarten, the necessity and ways of the child's preparation for the kindergarten are explained from a social psychological point of view.

***Keywords:*** *social intelligence, social adaptation, family environment, kindergarten environment, social adaptation, preparation for kindergarten.*

Müasir dövrdə intellektin öyrənilməsində yeni bir mərhələ - sosial intellektin tədqiq olunması aktuallaşmışdır. Sosial intellekt mahiyyəti etibarı ilə, intellektlə bağlı olsa da, fərdi sosial həyatda müvəffəqiyyət əldə etməyə istiqamətləndirmək onun özünəməxsusluğunu təşkil edir.

Adətən hələ kiçik yaşlarından etibarən valideynlər tərəfindən uşaqların əqli inkişafına daha böyük önəm verilir, nitqi formalaşan kimi onlara saymağın, toplamağın, çıxmağın, o cümlədən hərflərin, nağılların, şerlərin, hekayələrin və s. öyrədilməsi bunun təzahürüdür. Təbii ki, bunların hamısını uşaq bilməli və öyrənməlidir, hərçənd ki, bir çox hallarda valideynlər zamanı qabaqlayırlar. Əqli baxımdan zəngin insanlar hər zaman öz sanballarıı ilə hansı cəmiyyətdə olmalarına baxmayaraq seçilirlər və özünəməxsus mövqeyə malik olurlar. Amma əqli inkişaf onların formalaşmasının bir istiqamətidir, onlar həm də sosial həyata hazırlanmalıdırlar, axı onlar cəmiyyətdə, insanlar arasında yaşayacaq və fəaliyyət göstərəcəklər. Lakin bu məqam çox hallarda valideynlərin diqqətindən yayınır, uşaqlar sosial münasibətlərdən kənarda qalır, ünsiyyətləri, xüsusən yaşıdları ilə ünsiyyəti təmin olunmur. Halbuki, hətta güzəran təcrübəsindən məlumdur ki, sosial münasibətlərdə uğurlu olan insanlar əldə etdikləri nəticələrə görə intellektual baxımdan inkişaf etmiş insanlardan daha irəlidə olurlar.

Uşaqlarla pedaqoji iş zamanı yalnız əqli inkişafa üstünlüyün verilməsi onun formalaşmasını birtərəfli xarakter daşımasına səbəb olur. Məsələni daha dərindən təhlil etsək məlum olar ki, əqli inkişafda insanın digər insanlarla qarşılıqlı ünsiyyəti mühüm əhəmiyyət kəsb edir, insan onu əhatə edən insanlarla ünsiyyət prosesində daha çox şey öyrənmək, öyrəndiklərini daha dərindən dərk etmək imkanına malik olur. Başqa sözlə desək, intellektin inkişafı bu və ya digər dərəcədə sosial intellektin formalaşma səviyyəsi ilə düz mütənasibdir.

Həyatı boyu hər bir insan müxtəlif sosial problemlərlə yaşayır, onları həll etməyə, yoluna qoymağa çalışır. Sosial intellekti güclü olanlar bu problemlərin öhdəsindən uğurla gəlir, aşağı sosial intellektə malik insanlar isə, bu problemləri həll etməkdə çətinlik çəkir və ya obrazlı desək, problemlərin əlində "aciz" qalır. Hətta deyə bilərik ki, sosial intellekti güclü olan insan baş verən situasiyaları analiz edərək onların yaranmasının qarşısını ala bilir və ya özünü bu situasiyalara düşməkdən sosial intellekti sayəsində xilas edə bilir. Bu insanın sosiallaşma səviyyəsi ilə xarakterizə olunur, yəni sosial intellekt insanın sosiallaşmasına təkan verir.

Hər bir insanın sosial intellektinin formalaşmasının əsası məktəbəqədər yaş dövründə qoyulur. Apardığımız tədqiqatlara əsasən məktəbəqədər yaş dövründə uşaqların sosial intellektinin formalaşmasını üç mərhələyə bölə bilərik:

I. Birinci mərhələdə uşağın sosial intellektinin formalaşmasında valideyn-uşaq münasibətləri önəmli rol oynayır. Valideynin uşağa hiperqayğı və ya soyuq münasibət göstərməsi, uşaqla ünsiyyətdən qaçması, onun davranışlarını düzgün qiymətləndirməməsi və s. bu kimi amillər (onlayn əlaqələrin inkişaf etdiyi müasir dövrdə bu amillər daha "təhlükəli" xarakter daşıyır) uşağın sosial münasibətlərdə uğur qazanma imkanlarını məhdudlaşdırır. Halbuki, bu yaş dövründə uşağın ünsiyyət qabiliyyətinin inkişaf etdirilməsi sosial intellektin formalaşması baxımından mühüm əhəmiyyət kəsb edir. Məsələnin belə qoyulması valideyn-uşaq münasibətlərinin səmərəli qurulmasını tələb edir.

II. Valideyn-uşaq münasibətləri fonunda uşaqda ünsiyyət qabiliyyətinin yaranması ilə onun sosial intellektinin inkişafının ikinci mərhələsi başlayır. Bu zaman onun yaşıdları ilə ünsiyyətinin təşkili edilməsi aktuallaşır. Digər uşaqlarla ünsiyyət valideyn müdaxiləsi olmadan həyata keçdikdə daha böyük uğurlar əldə olunur. Erkən uşaqlıq dövründən sərbəst olaraq ünsiyyətə girən uşaqlarda sosial intellektin daha yaxşı inkişaf etdiyini deyə bilərik. Belə uşaqlarda məktəbəqədər yaş dövründə bağça mühitinə adaptasiya da rahat olur və onlar asanlıqla istənilən uşaq kollektivində öz yerlərini tuta bilirlər. Belə ki, onlar yaşıdları ilə daima ünsiyyətdə olmuş, bu prosesin aktiv tərəfdaşı kimi çıxış etmişlər.

III. Uşağın sosial intellektinin inkişafının üçüncü mərhələsi onun bağça həyatını əhatə edir. Uşağın ünsiyyət qabiliyyəti inkişaf etdiyi hallarda onun bağçaya adaptasiyası asanlıqla həyata keçir, sosial intellektinin inkişafı üçün yeni üfüqlər açılır. Əks hallarda isə uşaqların bağça həyatına adaptasiyasında böyük çətinliklər yaranır. Bu onların sosial intellektinin formalaşmasına mənfi təsir edir.

***Bağçaya sosial adaptasiya və onu çətinləşdirən amillər***

Uşağın bağçaya ilk ziyarəti ondan ünsiyyət qabiliyyətinin olmasını tələb edir. Belə ki, bu ziyarət nəticəsində o, erkən yaşında adət etmədiyi yeni, ailə mühitindən nəzərəçarpacaq dərəcədə fərqlənən sosial mühitə daxil olur. Yeni sosial mühitin özünəməxsusluğu ondan ibarətdir ki, o burada o heç vaxt ünsiyyətdə olmadığı yeni insanlarla münasibətlər sisteminə "qədəm qoyur". Bu vaxta qədər uşağın evdə olduğunu və yalnız qohum ailələrə (əmi, dayı, bibi, xala və s.) gediş-gəlişini, həmin ailələrdəki uşaqlarla ünsiyyətini nəzərə almasaq, bağçanı uşağın iştirakçısına çevrildiyi ilk sosial mühit kimi dəyərləndirə bilərik. Qohum ailələrdə o doğmalıq hissi ilə bağlı olan insanların əhatəsində, ev şəraitinə uyğun bir mühitdə olur. Bağçada isə adət etmədiyi gün rejimi, yeni yaşıdlarla tanışlıq, özündən böyüklərlə ünsiyyətə girmək zərurəti uşaqda kifayət qədər mürəkkəb psixoloji çətinliklərin yaranmasına səbəb olur. Bu zaman uşağın bağça fəaliyyətinin uğurlu ya uğursuz olması bu çətinlikləri dəf edə bilməsindən, yəni bu mühitə adaptasiya olma bacarığından asılıdır.

Təsadüfi deyildir ki, uşaqlar ilk dəfə bağçaya gedərkən onların fəaliyyətlərində müxtəlif davranış nümunələrini müşahidə edirik. Bəzən görürsən ki, "o ağlayır, evə getmək üçün anasını çağırır", bəzən "sakit durub, ətrafı müşahidə edir, kim nə deyirsə, onu yerinə yetirir, amma bu fəaliyyətinin fonunda evə getmə anını səbirsizliklə gözləyir", bəzən isə "o asanlıqla digər uşaqlarla ünsiyyətə daxil olur, tərbiyəçinin tapşırıqlarını ürəklə yerinə yetirir, axşam evə getmək məqamında uşaqlardan ayrılmaq istəmir" və s. Təbii ki, bu davranış nümunələri uşağın yeni mühitə sosial adaptasiya ola bilib və ya bilməməsinin təzahürüdür.

Ortaya nəzəri və praktik əhəmiyyətə malik olan belə bir sual çıxır: Sosial adaptasiya nədir? L.İ. Mardaxayevin fikrincə, sosial adaptasiya insanın sosial mühitin şərtlərinə (həyat mühitində) aktiv uyğunlaşmasıdır ki, bunun sayəsində özünüidarəetmənin və cəmiyyət tərəfindən qəbul edilmiş məqsədlərin, dəyərlərin, norma və davranış üslublarının təbii mənimsənilməsi üçün ən əlverişli şərait yaranır (1,81).

Sosial adaptasiya müxtəlif psixoloji yanaşmalarda fərqli məzmunda mənalandırılır. Bihevioristlər sosial adaptasiyaya sosial mühitdə və ya mədəniyyətdə fiziki, sosial - iqtisadi dəyişikliklər və ya qrup davranışında baş verən xüsusi dəyişikliklər kimi baxırlar (2). Psixoanalitiklər isə sosial adaptasiyaya başqa istiqamətdən yanaşırlar. Alman psixoanalitiki Q. Qartmana görə, adaptasiya konfliktli situasiyalarla bağlı olan proses kimi nəzərdən keçirilir. Qeyd etmək lazımdır ki, Z. Freydin işlərində də adaptasiya məsələsi geniş müzakirə olunub, lakin adaptasiyanın mexanizmləri və prosesləri Anna Freyd tərəfindən araşdırılmışdır (3).

Rus ədəbiyyatında "sosial adaptasiya, insanlar arasında sosial mühitə mənsub olmaq üçün sosial, sosial-psixoloji, mənəvi-psixoloji, iqtisadi və demoqrafik münasibətlərin dəyişməsi prosesi" kimi dəyərləndirilir. F.B. Berezin hesab edir ki, insan cəmiyyəti yalnız adaptiv cəmiyyət deyil, özünə adaptasiya etdirən sistemə malikdir, belə ki, insan təbiətində yenidən qurulma, bərpa olunma və yenidən tərbiyə kimi mühüm keyfiyyətlər vardır. Onun fikrincə, adaptasiya "insan fəaliyyətinin həyata keçirilməsi zamanı fərdlə ətraf mühit arasında optimal uyğunluğun qurulması prosesidir" (4, s. 5).

Müəlliflərin sosial adaptasiya anlayışına yanaşma nə qədər fərqli olsa da, mahiyyəti etibarı ilə insanın yeni olan mühitə daxil olma və onun şərtlərinə uyğunlaşması prosesi kimi başa düşülür. Adaptasiya aktiv prosesdir, onun nəticələri ya pozitiv (orqanizm və psixikanın uğurlu vəhdəti), ya da neqativ (stress) xarakter daşıyır. Bu zaman uğurlu adaptasiyanın 2 əsas meyarı olur: daxili komfort (emosional təmin olunma) və davranışın adekvatlığı (ətrafın tələblərini asan və rahat həyata keçirmə bacarığı). Beləliklə, müxtəlif alimlərin sosial-psixoloji adaptasiya probleminə nəzəri yanaşmalara nəzər saldıqda məlum olur ki, uşağın şəxsi və psixi keyfiyyətlərindən asılı olaraq fərdi reaksiyasını özündə ehtiva edən adaptasiya orqanizmin yeni şəraitə uyğunlaşmasıdır.

İnsan həm bioloji, həm də sosial varlıqdır. Bu istiqamətdə psixoloji ədəbiyyatda həm bioloji adaptasiya, həm də sosial adaptasiya anlayışlarını fərqləndirirlər.

Bioloji adaptasiya - yeni şərtlərə uşağın orqanizminin müxtəlif orqanları və sistemləri tərəfindən fizioloji dəyişmə ilə verdiyi cavab reaksiyasıdır. Bioloji adaptasiya uğurla həyata

keçməsə uşaqda nitqin pozulması, psixi inkişafının ləngiməsi, immun sisteminin zəifləməsi kimi hallara rast gəlinir. İlk dönəmlərdə demək olar ki, uşaqların əksəriyyətində bu əlamətlərdən hər hansı biri özünü göstərir. Bunların içində isə, xüsusi yeri uşaqların tez-tez xəstələnməsi hallarına rast gəlinir.

Sosial adaptasiya - uşağın qrup daxilində yeni sosial münasibətlərinin və əlaqələrinin formalaşmasıdır. Nitq bu vaxt uşaqlar arasında mühüm əlaqələndiriciyə çevrilir. Sosial adaptasiya bioloji adaptasiyaya nisbətdə isə uşaqların daha çox əziyyət çəkdikləri tərəf olur. Əgər sosial baxımdan adaptasiya ola bilməsələr, bu onların inkişafı üçün ən böyük baryerə çevrilir. Hətta qrupda özünü izolyasiya etmiş uşaqlara da rast gəlmək olar. Bəs bunun səbəbini necə izah edə bilərik? (5)

Bioloji və sosial adaptasiya bir-biri ilə sıx bağlıdır. Belə ki, mürəkkəb sosial münasibətlər zamanı orqanizmin funksional aktivliyinin enməsi nəticəsində uşağın immuniteti də aşağı düşür.

Uşağın yeni sosial mühitə uyğunlaşması yaranan çətinliklər baxımından müəyyən səviyyələrə malikdir. Psixoloji ədəbiyyata və apardığımız tədqiqatlarda əldə etdiyimiz materiallara əsasən uşağın bağçaya adaptasiyanı bu meyar əsasında aşağıdakı kimi təsnif edə bilərik.

1.Yüngül adaptasiya: müvəqqəti olaraq yuxunun (7-10 gün müddətində) iştahın (10 gün müddətində) pozulması, qeyri-adekvat emosional reaksiyanın yaranması (kapriz, qapalılıq, aqressiya, yorğunluq, və s.), bələdləşmə və oyun aktivliyinin pozulması (20-30 gün müddətində).

2. Orta adaptasiya: yuxarıda sadalanan pozuntular daha çox və uzun müddət davam edir: yuxu, iştah 20-40 gün ərzində, bələdləşmə fəaliyyəti 20 gün, nitq aktivliyi 30-40 gün ərzində, emosional vəziyyət 30 gün ərzində bərpa olur. Yaşlılar və yaşıdları ilə ünsiyyəti pozulmur. Funksional pozuntular daha çox özünü büruzə verir (məs., KRV- kəskin resperator viruslar).

3. Ağır adaptasiya (2-6 ay müddətində): Uşağın bütün reaksiya və davranışında kobud pozuntular yaranır. Bu tip adaptasiya zamanı iştahın enməsi və yuxunun pozulması ilə müşayiət olunan uşaq yaşıdları ilə ünsiyyətdən qaçır, təkliyə meyl edir, onda aqressiya yaranır və uzunmüddətli təcrid vəziyyətinə meylliliyi ilə xarakterizə olunur. (Uşaq ağlayır, passiv olur, bəzən əhvalı kəskin dəyişir). Adətən əsas müşahidə olunan dəyişikliklər nitqdə və davranışda özünü göstərir. Bəzi hallarda müvəqqəti psixi ləngimə yaranır. Bir qayda olaraq ağır adaptasiya dövrü keçən uşaqlar ilk 10 gün ərzində xəstələnir və bu hal kollektivə öyrəşənə kimi tez-tez təkrarlana bilir.

4. Çox ağır adaptasiya (6 ay və daha çox). Bu zaman valideyni bu sual üzərində düşünməlidir: “Uşağı bağçaya qoymağa ehtiyac varmı?” demək ki, bu uşaq bağçalıq uşaq deyil.

Qeyd olunan təsnifatdan göründüyü kimi, uşağın bağçada mövcud olan yeni sosial şəraitə adaptasiyası müxtəlif dərəcələrdə baş verir. Bu onların sosial intellektinin inkişaf səviyyəsi ilə bilavasitə əlaqəlidir. Sosial intellektinin inkişaf səviyyəsi müxtəlif olduğu üçün müxtəlif dərəcəli çətinliklər yaranır. Çətinliklərin yaranması uşaq bağçaya gedən zaman onun həyatında meydana çıxan aşağıdakı dəyişikliklərlə bağlıdır:

1. Uşaq bağçaya gedərkən yeni uşaqlarla münasibətlər sisteminə daxil olur. Müasir dövrdə ailələrdə uşaqların sayının azalması, valideynlərin hər ikisinin işləməsi, onlayn ünsiyyət formasının aktuallaşması insanlarda həm ünsiyyət tələbatının ödənməməsinə, həm də ünsiyyət tələbatının azalmasına səbəb olur. Bu amilə diqqət yetirməyən ailələrdə böyüyən uşaqda ünsiyyət qurmaq bacarıqlarının inkişaf etməməsi uşağın bağçaya gedərkən digər uşaqlarla ünsiyyətə daxil olmasını çətinləşdirir.

2. Bağçaya gedərkən uşağın ev şəraitində adət etdiyi gün rejimi dəyişir. Məlum olduğu kimi, evdə uşaq tam sərbəst olur, istədiyi vaxt oynayır, yemək yeyir, televizora baxır, telefonda müxtəlif onlayn oyunlar oynayır, hətta şıltaqlıq edir və s. Bağça mühiti uşağın inkişafı baxımından daha böyük əhəmiyyət kəsb edir, orada müxtəlif məşğələlər həyata keçirilir. Evdəki mühitlə bağça mühiti arasında mövcud olan fərqlər onun adaptasiyasına mane olan amillərdən birinə çevrilir.

3. Bağça müəlliminin münasibəti, uşaqlara yanaşma metodikası evdə valideynin ünsiyyət tərzindən köklü surətdə fərqlənir. Valideyn-uşaq münasibətləri doğmalıq hissi üzərində köklənir, bu ünsiyyətdə uşağın inkişafı haqqında düşüncələr güzəran səviyyəsi əsasında müəyyən olunur. Bağçada da doğmalıq hissi önəmli olur, lakin bağça müəllimi uşağın inkişafını elmi-pedaqoji

tədqiqatların nəticələri əsasında təşkil edir. Məsələn, evdə uşağın qarşısına heç bir tələblər qoyulmadığı halda, bağçada onun fəaliyyəti artan tələblərlə zəngin olur.

Bu istiqamətdə bağçaya yeni gələn uşaqların sosial adaptasiya olması tərbiyəçidən xüsusi səy tələb edir. Onların uşağın ictimai tərbiyə şərtlərinə öyrənməsi üçün etdikləri cəhdlər hər zaman uğurlu alınmır. Bu, əsasən onunla bağlıdır ki, qrupa gələn təzə uşaqların həmişə diqqət və qayğıya ehtiyacı olur. Bir çox tədqiqatçılar (6; 7) bunu əsas götürən belə hallarda tərbiyəçinin uşağa fərdi yanaşmasına üstünlük verməsini zəruri sayırlar. Təzə gələn uşaqlara göstərilən diqqət və qayğı onların bağçaya adaptasiyasını asanlaşdırır. Müəllimin yeni gələn uşağa bu münasibəti digər uşaqların da onunla xoş ünsiyyətə girməsinə səbəb olur.

***Bağçaya hazırlıq sosial adaptasiyanı yaxşılaşdıran amil kimi***

Tərbiyəçilərin səyi ilə bərabər tədqiqatçılar uşağın bağçaya adaptasiyasının alternativ yollarını da axtarırlar. Onlar (S.A. Amonaşvili (8), Q.F. Kumarina (9), A.V. Mudrik (10), N.D. Vatulina (11) və b.) öz araşdırmalarında uşaqların bağçaya adaptasiyasının optimallaşdırılmasını uşaqların bağçaya hazırlığının həyata keçirilməsində görürlər. Təbii ki, uşaqların yeni sosial mühitə düşməsinə əvvəlcədən hazırlığın həyata keçirilməsi sosial adaptasiyanı asanlaşdıra bilən amillərdən biridir. Ümumiyyətlə götürdükdə, insanın həyatının müxtəlif dövrlərində yeni mərhələyə qədəm qoymaq üçün hazırlıq işləri həyata keçiriləndə müsbət nəticələrin əldə olunma imkanları genişlənir. Bu gün uşaqların məktəbə hazırlığının əsas səbəblərindən birini də bu təşkil edir. Hətta bir məsələni də qeyd etməyi zəruri hesab edirik ki, orta məktəbi yaxşı qiymətlərlə bitirib, ali məktəbə qəbul olan tələbələr arasında da yeni mühitə uyğunlaşa bilməmək halları müşahidə edilir. Bu istiqamətdə insanın hər bir yeni mərhələyə hazırlanması onun sosial adaptasiyasını yalnız yaxşılaşdıra bilir.

Bağçaya adaptasiya zamanı stressi minimuma endirmək üçün uşağı əvvəlcədən hazırlamaq və bağça haqqında düzgün və ətraflı təsəvvür formalaşdırmaq lazımdır. Uşağın bağça həyatına hazırlanması valideyndən öz övladını yaxşı tanımağı, onun şəxsi keyfiyyətlərindən və maraqlarından xəbərdar olmağı tələb edir. Onun övladının psixoloji keyfiyyətlərini bilməsi bağçaya hazırlıq mərhələsində uşaqla işləmə strategiyasının müəyyən edilməsi baxımından mühümdür. Belə olduğu şəraitdə valideyn bağça müəllimi ilə əməkdaşlıq edərək, övladının “özəllikləri” barədə ona məlumat verə və onunla birlikdə uşağın bağçaya adaptasiya məsələsini asanlıqla həll edə bilər. Bu məsələni, yəni valideynlərin uşağı bağçaya hazırlığının nə dərəcədə əhəmiyyətli olmasını aydınlaşdırmaq üçün məqsədilə biz tədqiqat həyata keçirdik. Tədqiqatın ilkin mərhələsində valideynlərlə sorğu keçirdik. Sorğu keçirməkdə məqsədimiz valideynlərdən övladının bağçaya necə gəldiyini - həvəslə və yaxud çətinliklə gəldiyini müəyyənləşdirmək idi. Bu istiqamətdə əldə etdiyimiz məlumatların dəqiqliyini müəyyən etmək üçün onları bağça müəllimi ilə müzakirə etdik. Sonra valideynləri “övladı bağçaya yaxşı adaptasiya olunmuş” və “çətin adaptasiya olunmuş” meyarı əsasında şərti olaraq iki qrupa böldük. İkinci mərhələdə, hər iki qrupa daxil olan valideynlər üçün tərtib etdiyimiz anket sorğusunu doldurmaq təklif olundu. Anket sorğusu valideynin uşağı bağçaya hazırlamaq məqsədi ilə nə işlər gördüyünü müəyyənləşdirməyə istiqamətlənmişdi. Anket cavablarının əsasında məlum oldu ki, uşağın bağçaya alışa bilməməsində valideynlərin səhvləri az deyildir. Valideyn səhvlərini ümumi olaraq aşağıdakı kimi qruplaşdırmaq olar:

1) Valideynlərin bir qisminin uşağın bağçaya adaptasiyasının əhəmiyyətini anlamaması və uşağın qəfildən bağçaya qoyulması;

2) Sistematikliyin pozulması. Uşağı bir gün bağçaya aparıb bir gün aparmamaq, belə olduqda uşağın bütün adaptasiya gücü tükənmiş olur;

3) Sağollaşma zamanı ananın birdən gözdən itməsi. Belə olan halda uşağın öz valideyninə inamı itir və düşünür ki, valideyn onun hər çətin anında yoxa çıxa bilər;

4) Evdə və bağçada olan tələblərin eyni olmaması. Evdə ayaq üstə qidalanmağa alışmış uşağın bağçada stol arxasında oturmağa alışdırmaq çətin olur. Özü sərbəst yatmağa alışmamış uşaq üçün də bağça mühitinə alışmaq çətindir;

5) Gün rejiminin üst – üstə düşməməsi. Uşağın gün rejiminin doğulduğu gündən etibarən yaşına uyğun qurulmasına çalışmaq lazımdır. Valideynlər bu fakta əhəmiyyət vermədikdə həm uşağın inkişafına əngəl olur, həm də o bağ-

ça rejiminə uyğunlaşmaqda çətinlik çəkir. Uşağın yemək və yatmaq saatları stabil olmalıdır. Belə olduğu halda uşaqda özünənəzarət imkanları artır. Əks halda, onun məsuliyyətini dərk etməyən, nizamsız şəxsiyyətə çevrilmə imkanları genişlənir;

6) Uşağa özünə qulluq vərdişlərinin aşılanması. Kiçik yaşlarından etibarən uşağın özünəqulluq istiqamətində bütün təşəbbüsləri mükafatlandırılmalıdır. Onun paltar geyinməyə, yemək yeməyə, tökdüklərini yığışdırmağa cəhd etmə istəməyi xüsusi olaraq təqdir olunmalıdır;

7) Uşağın sosiallaşmasına diqqətsiz yanaşma və sosiallaşmanın mahiyyətini bilməmə. O, bağçaya getməzdən öncə yaşıdları və özündən böyüklərlə ünsiyyətə girmək vərdişlərinə yiyələnməlidir ki, bağçada depressiv vəziyyət yaşamasın.

Uşağın bağçaya adaptasiyasının uğurlu keçməsi üçün valideynlərdən xüsusi səriştə tələb olunur. İlk öncə uşağı bağçaya öncədən hazırlaşdırmağa başlamaq lazımdır. Hazırlıq mərhələsinin aşağıda göstərdiyimiz postulatlar əsasında həyata keçirilməsi məqsədəuyğundur:

1. Valideynlər uşağa bağçanın nə olduğunu, uşaqların ora nə üçün getdiklərini, ora kimlərin getdiklərini, valideynin uşağı ora nə üçün qoymaq istədiklərini anlatmalıdırlar;

2. Valideynin uşağı bağçaya qoymaq zərurəti yarananda, gəzinti zamanı uşağa bağçanı göstərməsi, bəzi hallarda isə, xüsusən zərurət qətiləşdiyi vaxt, bağça uşaqlarının gəzintisi zamanı onlara qoşulmaq, onlarla birgə oynamaq adaptasiyanı asanlaşdırır;

3. Bağça həyatı, rejimi ilə uşaqları tanış etmək. Çalışmaq lazımdır ki, uşağı əvvəlcədən bağça rejiminə daha yaxın bir rejimi evdə tətbiq etsinlər. Uşağın birdən birə həm yeni sosial mühitə, həm də gün rejiminə adaptasiyası onun nə fiziki gücünə, nə də psixi inkişafına uyğundur. Uşağın yanında bağça haqqında mənfi xarakterli münasibətin bildirilməsi yolverilməzdir. Valideynlərin uşaqların özlərini pis apardığı zamanda onları bağça ilə qorxutması isə uşaqda fobiyanın yaranmasına səbəb olur;

4. Uşaqlara yeni uşaqlarla tanış olmağı, oynamağı, oyuncaqlarını dəyişməyi öyrətmək. Əsasən evdə tək böyüyən, uşaqlarla daha az ünsiyyətdə olan uşaqlarda öz yaşıdları ilə ünsiyyətə girə bilməməsi, onlarla oyuncaq paylaşa bilməməsi hallarına tez-tez rast gəlinir. Valideynlər çalışmalıdırlar ki, uşaqları öz yaşıdları ilə ünsiyyətdən təcrid etməsinlər;

5. Valideynlərin öz uşaqlarının yanında onları bağçaya qoymaqla bağlı həyəcanı, təşvişi və qorxusunu hiss etdirməsi yolverilməz haldır. Heç kəsə sirr deyildir ki, uşağını bağçaya həvalə edən valideyn də övladı qədər həyəcan keçirir. Uşaqdan müəyyən müddət ayrılma, onun yeni mühitə adaptasiyasının necə olacağı valideyni hər zaman düşündürür. Valideynlərin belə emosional halını uşaqlar hiss etdikdə, bağçaya qarşı istəksizliyə öz təsirini göstərə bilər;

6. Uşağı kollektivdə digər uşaqlarla birgə fəaliyyətə cəlb etmə. Uşağı kollektivdə digər uşaqlarla birgə fəaliyyətə alışdıra bilmək (gəzməyə və danışmağa başlayandan sonra) onun bağçada sosial adaptasiya ilə bağlı çətin ki, problemi olar;

7. Uşağın bağçaya adaptasiyasının daha sürətli olması üçün onun başqa uşaqlarla ünsiyyət qurmağı öyrənməkdir. Bunun üçün tez-tez uşaq meydançalarında gəzinti, qohum və qonşu evlərinə qonaq getmək və ya onları qonaq qəbul etmək kimi vacib məsələni aktuallaşdırmaq lazımdır. Uşaqda digər uşaqlara qarşı ünsiyyət tələbatının yaranması onun bağçaya sosial adaptasiyanı asanlaşdırır.

***Nəticə***

Uşağın bağçaya adaptasiyası mürəkkəb və məsuliyyətli bir prosesdir. Əsas odur ki, uşaq bu prosesdə əziyyət çəkməsin, onun psixofizioloji inkişafına zərbə olmasın. Məhz buna görə də bu proses tədricən həyata keçirilməlidir. Bununla bağlı belə bir təcrübə var ki, uşaq bağçaya əvvəlcə günün müəyyən hissəsi (bir-iki saat) gedir, tədricən bu saatlar artırılır. Müəyyən vaxt keçəndən sonra uşaq bağça rejiminə alışır, sosial adaptasiya olur.

Uşaqlar ananın yanında özlərini təhlükəsiz hiss edirlər. Onun yanında uşaqlar nəinki öz yaşıdları, hətta özlərindən böyüklərlə də rahat ünsiyyət qura bilirlər. Buna görə də zaman-zaman yaranmış ünsiyyət normalarını - tanış olma, oyun oynamaq və ya artıq oynayan uşaq qruplarına qatılmaq, oyuncaq mübadiləsi, oyunda növbə gözləməyi bacarmaq, konfliktlərin həlli və s. uşaqlara öyrətmək onda sosial adaptasiya bacarıqlarının və sosial intellektin inkişafına təkan verir.

Bağçaya hazırlığın vacib aspektlərindən biri də uşağa anadan ayrı qalmağı zamanla alış-

dırmaqdır. Uşaq valideynlərinin işə getdiyini anlatmalı və bu zaman onun üçün qalacaq ən səmərəli yerin məhz bağça olduğunu bilməlidir. Uşağı əmin etmək mütləqdir ki, siz mütləq onun ardınca gələcəksiniz. Əks halda valideyn uşaqda fobiyanın yaranmasına səbəbkar ola bilər.

**Problemin aktuallığı.** Bağçaya sosial adaptasiya uşaqların sosial intellektinin inkişafında mühüm rol oynayır. Məqalədə bağçaya sosial adaptasiyanın yollarının açıqlanması bu istiqamətdə aktuallıq kəsb edir.

**Problemin yeniliyi.** Uşağın bağçaya adaptasiyasının yaxşılaşdırılması onun sosial intellektinin yolu kimi dəyərləndirilir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə uşağın bağçaya adaptasiyasının yaxşılaşdırılması yollarının açıqlanması bağça müəllimlərinin öz fəaliyyətlərini təkmilləşdirmək imkanı verir.

**Ədəbiyyat:**

1. Мардахаев Л.В. Социальная педагогика. Учебник. -М.: Гардарики, -2006. -269 с.
2. https://science-education.ru/ru/article/view?id=12090
3. H. Hartmann, Ego psychology and the Problem of adaptation. -NY.,1958. -121 p.
4. Березин Ф.Б.Психическая и психофизиологическая адаптация человека. –1988, 272 с.
5. https://studfile.net/preview/9497256/page:16/
6. Ильина И.С. Адаптация ребенка к детскому саду. - Москва, 2008. -143 s.
7. Адаптация ребенка к детскому саду [Текст]: советы педагогам и родителям: сборник / сост. А. С. Русаков. – СПб.: Речь ; -М. : Сфера, -2011. – 128 с.
8. Амонашвили Ш.А. Как любить детей (опыт самоанализа). [Электронный ресурс] http://www.art-education.ru/sites/default/files/journal_pdf/ (дата обращения 15.11.19.)
9. Кумарина Г.Ф. Профилактика школьной дезадаптации: социально-педагогический подход [Т / // Социальная педагогика. - 2013. - № 5.
10. Мудрик, А. В. Социализация человека / А. В. Мудрик. – М., 2006. 6.
11. Ватулина Н.Д. Ребенок поступает в детский сад. -Москва: Просвещение, -1983.

**E-mail:** sabina.az@gmail.com

**Rəyçilər:** *ped.elm.dok., prof.* **A.N. Abbasov**
*ped.ü.fəls.dok.* **L.A. Məmmədli**
**Redaksiyaya daxil olub: 20.09.2023**